Xalq qəzeti .- 2022.- 2 oktyabr.- S. 7.

# Bibiheybətdə əbədi “yaşayan” polyak

## Yaxud “Pototski mənim qonşumdur”



**Bibiheybətdə dövlət başçısının tapşırığı ilə tikilmiş binada mənzil alan həmkarlarımın hamısının sevincini başa düşürəm. Mənim üçünsə həmin ərazidə ev almaq ikiqat sevinc idi. Çünki ötən əsrin 70-ci illərinin əvvəllərində 26 Bakı Komissarı adına Neft və Qazçıxarma İdarəsində – yəni, mədən fəhləsi kimi işə düzələndə əmək fəaliyyətimə məhz bu yerlərdə başlamışdım. 22–23 yaşlarımda dolaşdığım, əmək təcrübəsi, ali təhsil, müəllimlik stajı, iki otaqlı mənzil (iş yerimdən 30 kilometr uzaqlıqda olsa da), o zamanların tələbinə uyğun ikinci diplom qazandığım Bibiheybətə 62 yaşımda yenidən qayıdırdım. Amma indi həmin İttifaq yox, başı daşdan-daşa dəymiş, SSRİ kimi nəhəng bir dövlətin dağılmasının şahidi olmuş, gənc müstəqil Azərbaycanın həqiqətlərini 20 dəfədən də artıq müxtəlif xarici ölkələrdə səsləndirmiş qələm sahibi, fəxri adlı jurnalist kimi qayıdırdım. Bayıldan başlanan yol məni bumeranqa döndərib buraya qaytarırdı.**



Qayıtdım və jurnalistlər binasının ilk sakinlərindən biri olduğum günün sabahı – 2014-cü il dekabrın 28-də gəncliyimin izlərini axtara-axtara yeni mənzilimizdən dənizə, oradan Bayıla, sonra 20-ci sahəyə qədər olan ərazini payi-piyadə, qarış-qarış gəzdim. Köhnə tanışlarımızdan 2–3 nəfərlə görüşdüm. Bibiheybət buxtasını qurudub azərbaycanlı mədənçilər üçün neft çıxarmaq imkanı yaratmış (o zamanlar hələ dənizdə neft çıxarmaq texnologiyası yox idi) polyak mühəndisin məzarını ziyarət etdim. 70-ci illərdə həmin məzarı yüz dəfələrlə ziyarət etmişdim. Bu adam vəsiyyət edibmiş ki, dünyasını dəyişəndə onu bilavasitə öz yaradıcılığının son hüdudu olan yerdə – qurudulmuş ərazinin dənizlə qovuşan hissəsində dəfn etsinlər. Azərbaycan hökuməti həmin vəsiyyəti yerinə yetirib.

Xatırladaq ki, tanınmış mütəxəssis Pavel Pototski 1879-cu ildə Peterburq şəhərində zadəgan ailəsində anadan olmuşdur. Gənc Pavel 1901-ci ildə Yollar və Rabitə İnstitutunu bitirmişdir.1910-cu ildə Bakı neft sənayeçiləri torpaq qazma işlərində savadlı və bacarıqlı mühəndis olan Pavel Pototskini Bibiheybət buxtasının doldurulması işlərinə rəhbərlik etməyə dəvət etmişlər. O vaxta qədər isə dünyanın heç bir yerində sulu ərazinin torpaqla doldurulması işləri aparılmamışdı.

Məhz bu səbəblərdən körfəzin torpaqla doldurulması işində Pavel Pototskinin xidmətlərinin böyük əhəmiyyəti olmuşdur. Ancaq Bakıya gələn Pototoski burada 41 yaşında ikən gözlərinin nurunu itirmişdir.

Bibiheybət körfəzində işlərin davam etdirilməsi haqqında sərəncam verildikdən sonra “Azneft”in rəhbərliyi Pavel Pototskiyə buxtanın doldurulma işlərinə rəhbərliyi öz üzərinə götürməyi təklif edir. Bu iş uğurla davam etdirilir və 1923-cü il aprel ayının 18-də İliç buxtasında (3-cü layda) 82,5 metr dərinliyində quyu işə salınır. Yeni ərazidən – torpaqla örtülmüş sahədən vuran ilk neft fontanı bütün dünyanı heyrətə gətirir, beynəlxalq neft konfranslarında böyük marağa səbəb olur.

Sonra Pototski ikinci bir layihə tərtib edir. Bu layihədə daha 79 hektar ərazinin torpaqla doldurulması nəzərdə tutulmuşdu. İkinci layihə onun müəllifinin ölümünə az müddət qalmış yerinə yetirilir. 1930-cu ilin əvvəlində Pavel Pototskinin layihəsi üzrə dənizin torpaqla örtülən ərazisi 100 hektara çatdırılır.

Məşhur rus yazıçısı Maksim Qorki də Pavel Pototski şəxsiyyətinə pərəstişini gizlədə bilməmiş, Bakıda olarkən öz qeydlərində yazmışdı: “Eşitmişəm Pototski bir əfsanədir. Gözləri görmədiyi halda Bibiheybəti yaxşı tanıyır, torpaqla doldurulma işlərinin görülən və görüləcək yerini xəritədə düzgün göstərir”.

O, hətta ölümünə bir neçə gün qalmış belə, körfəzin işlərinin başa çatdırılmasına rəhbərlik etmişdir. Pavel Nikolayeviç Pototski 1932-ci ildə vəfat edir və öz vəsiyyətinə görə Xəzərdən “zəbt olunmuş” – Bibiheybətin torpaqla doldurulmuş sahəsində, dəniz kənarında dəfn edilir. Onun məzarı ulu öndər Heydər Əliyevin göstərişi ilə əcnəbi qonaqlar, xüsusən, polyaklar üçün ziyarət yerinə çevrilmişdir. Ölkəmizə rəsmi səfərə gələn polyak siyasətçilər, polşalı turist və qonaqlar mütləq həmin ərazini ziyarət edirlər. Onun məzarüstü xatirə abidəsi də Heydər Əliyevin tapşırığı ilə hazırlanmışdır.

Bax belə. Mən yeni binada mənzil alandan dərhal sonra məhz həmin insanın məzarını ziyarət edib ruhuna rəhmət oxumuşdum. Çünki onun elmi və əməli olmasaydı, mənim indi yaşadığım binanın yeri hələ də dəniz idi. Ruhu şad olsun.

**İttifaq MİRZƏBƏYLİ,**
**Əməkdar jurnalist**